Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "İlin ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllimi" müsabiqəsinin keçirilməsi məqsədilə Təhsil Nazirliyində zəruri işlər həyata keçirilir. Artıq "İlin ən yaxşı müəllimi" müsabiqəsində iştirak etmək üçün nazirliyə 138 müəllim müraciət edib. Onların arasında Bakı, Sumqayıt, Əli Bayramlı və Şəki şəhərində pedaqoji fəaliyyətlə məşğul olan müəllimlər sayca daha çoxdur. Eyni zamanda riyaziyyat (23 nəfər), ingilis dili (21 nəfər), Azərbaycan dili və ədəbiyyatı (17 nəfər), fizika (14 nəfər) və tarix (13 nəfər) fənnini tədris edən müəllimlər üstünlük təşkil edirlər. Onu da qeyd edək ki, bu müsabiqədə müəllimin təlim-tərbiyə prosesində qabaqcıl iş təcrübəsi ilə seçilməsi, kompüter və müasir təlim texnologiyalarından istifadə qabiliyyəti, şagirdlərinin ayrı-ayrı göstəricilər üzrə yüksək nəticələri əsas meyar kimi nəzərə alınır. "İlin ən yaxşı məktəbi" müsabiqəsi üzrə də göndərilən sənədlərin qeydiyyata alınması istiqamətində də iş aparılır. Hazırda bu müsabiqəyə 18 sənəd təqdim olunub. Bunlardan 3-ü Sumqayıt, 2-si Mingəçevir şəhərlərinin, 3-ü İsmayıllı, 3-ü Kürdəmir, hərəsindən biri olmaqla Qax, Ağdaş, Samux rayonlarının ümumtəhsil məktəbləridir. Bakı şəhərindən qeydiyyata alınan 4 ümumtəhsil müəssisəsi isə Təhsil Nazirliyinin tabeliyində olan T.İsmayılov adına "İntellekt", İ.Hacıyev adına "Tərəqqi" Texniki-humanitar, Fizika-riyaziyyat və informatika təmayüllü liseyləri, eləcə də S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziyadır. Məlumat üçün bildiririk ki, hər iki müsabiqə üzrə sənədlərin qəbulu martın 15-dək davam edəcək.